**Xalq qəzeti.** - 2022.- 7 dekabr. - № 267. - S. 1,4.

# Milli parlamentarizmin 104 yaşı

## 1918-ci ilin 7 Dekabr təntənəsi

**Anar İskəndərov**,
Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor

**1918-ci il dekabrın 7-də müstəqil Azərbaycan dövlətinin parlamenti öz işinə başladı. AXC müsəlman Şərqində ilk cümhuriyyət olduğu kimi, Azərbaycan Parlamenti də ilk çoxpartiyalı parlament kimi tarixə düşdü.**

Parlamentin yaradılması ilə bağlı xalqa müraciətdə deyilirdi ki, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin parlamentdə təmsil olunması nəzərdə tutulmuşdur. Belə ki, o zaman Azərbaycan ərazisinə Bakı və Gəncə quberniyaları, Zaqatala dairəsi, İrəvan və Tiflis quberniyalarının bir hissəsi daxil idi. Bu ərazidə 2 milyon 750 min nəfər əhali yaşayırdı.Bunların 1 milyon 900 min nəfəri müsəlman, 500 min nəfəri erməni, 230 min nəfəri rus idi. Hər 24 min nəfərdən bir nümayəndə hesabı ilə parlamentdə müsəlmanlara 80, ermənilərə 21, ruslara 10, azlıqda qalan alman, yəhudu, gürcü və polyaklara bir yer verilirdi. Halbuki,gürcü və polyakların sayı nəzərdə tutulan normadan xeyli az idi. Amma Milli Hökumət parlamentdə azlıqda qalan xalqların hamısının iştirakını təmin etmək üçün bu qaydanı pozmağa razılıq verdi.

Parlamentin yaradılmasına ən çox maneçilik törədənlər rus və erməni milli şuraları idi. Hər iki şura təkid edirdi ki, Azərbaycan hökuməti Ufadakı Kolçak hökumətini tanımalı və “Vahid və bölünməz” Rusiya ilə bir cəbhədə çıxış etməlidir.

Müttəfiq qoşunların komandanı, general V.Tomsonla dil tapmaq ümumiyyətlə, mümkün deyildi. General Tomson Azərbaycan Xalq Cümhuriyyətini tanımadığını və Birinci dünya müharibəsində müttəfiqi olan Rusiyanın torpağına gəldiyini bildirdi. Hökumətin başçısı

AXC-nin elan edilməsinin Azərbaycan xalqının qərarı və istəyi ilə həyata keçirildiyini və bunu bütün dünya dövlətlərinə bəyan etdiklərini bildirdi. F.Xoyski sözlərinə davam edərək: “Siz böyük bir millət və böyük bir imperatorluqsunuz, eyni zamanda, mədəni bir millətsiniz. Bizim -istiqlalımızı qəbul etməlisiniz. “General -Tomson: “Bu söylədikləriniz -siyasi məsələdir, iki dövlət arasında cərəyan edir. Mən bir əsgərəm” – cavabını verdi. F. Xoyski də cavabında: “Madam ki, siz əsgərsiniz, mən də istiqlalını elan etmiş Cümhuriyyətin Baş naziriyəm. Biz sizi bura dəvət etməmişik.Sizdən torpaqlarımızı tərk etməyi tələb edirəm.” Bu tələb qarşısında general Tomson tərcüməçiyə dönərək: “Baş nazir həzrətlərinə söyləyin ki, hər hansı bir hərbi qüvvəni çıxarmaq üçün əsgəri qüvvəyə sahib olmaq lazımdır. Aldığım məlumata görə qurduğunuz Cümhuriyyətin ordusu yaranmamışdır.” Cavabında Fətəli xan da tərcüməçiyə: “General həzrətlərinə söyləyin ki, o yalnız hərbi savada malikdir. Ya xalq gücünün nə olduğunu bilmir, ya da bizi hind xalqı zənn edir. Biz Azərbaycan türkləri istiqlalımızı elan etməzdən əvvəl yüz mindən artıq rus əsgərini xalqın köməyi ilə sərhədlərimizdən qovub çıxarmışıq. Əgər inad edirsinizsə, bir ovuc ingilis əsgərini dənizə tökmək xalqımızın gücüylə bir neçə saatlıq işdir. Ancaq biz nə sizdən pislik görmək, nə də sizlərə pislik etmək istəyirik” – cavabını verdi.

Uzun və israrlı danışıqlardan sonra Azərbaycan Parlamentinin açılışına razılıq alındı.Dekabrın 7-də saat 13-də H.Z. Tağıyevin qızlar məktəbinin binasında (indiki Əlyazmalar İnstitutu) parlamentin təntənəli açılışı oldu.

Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti yarandığı gündən öz işini demokratik prinsiplər əsasında qurmuşdu. Parlamentin təşkili haqqında qəbul edilmiş qanunda onun 120 nəfərdən ibarət olması nəzərdə tutulsa da, müxtəlif səbəblər üzündən iclaslarda heç zaman bu sayda deputat iştirak etmədi.

1919-cu ilin axırında Parlamentdə 11 fraksiya təmsil olunurdu.Parlamentdə təmsil olunan siyasi partiya və qurumların nisbəti aşağıdakı kimi idi: “Müsavat” və bitərəflər fraksiyası – 38 nəfər, “İttihad” – 13 nəfər, “Əhrar” – 6 nəfər, Sosialistlər fraksiyası – 13 nəfər, partiyasızlar – 4 nəfər, müstəqillər – 3 nəfər, sol müstəqillər – 1 nəfər, Slavyan – Rus Cəmiyyəti – 4 nəfər, erməni fraksiyası – 5 nəfər, “Daşnaksütyun” – 6 nəfər, milli azlıqlar fraksiyası – 4 nəfər.

Azərbaycan Parlamentində təmsil olunan və ölkənin milli mənefeyini müdafiə edən fraksiyalar və qrupların öz fəaliyyət proqramları haqqında verdikləri bəyanatlar əsasən bu sahələri əhatə edirdi: Gənc Azərbaycan Cümhuriyyətinin müstəqilliyi və ərazi toxunulmazlığını, milli və siyasi hüquqlarını qoruyub saxlamaq; Azərbaycanla qonşu dövlətlər arasında dostluq əlaqələri yaratmaq və bu əlaqələri

möhkəmləndirmək; hüquqi-demokratik dövlət quruluşunu bərqərar etmək; ölkəni müdafiə edə biləcək güclü ordu yaratmaq; geniş sosial islahatlar həyata keçirmək...

Parlamentdə fəaliyyət göstərən fraksiyalar arasında ən böyüyü və aparıcısı milli düşüncənin daşıyıcısı olan "Müsavat" Partiyasına aid idi. Bu fraksiya demokratik bitərəflər qrupu ilə birlikdə parlamentin və hökumətin fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirir, milli mənafe ilə bağlı bütün qanun və qərarların qəbul edilməsində həlledici rol oynayırdı.

Parlamentdə ikinci fraksiya "İttihad" partiyasına məxsus idi. Bu fraksiya milli-demokratik qüvvələrə qarşı müxalifətdə idi və hökumətlərin təşkilində iştirak etmədi.

Parlamentdə ifrat solçu mövqedən çıxış edən fraksiyalardan biri də sosialistlər bloku idi. Onlar Azərbaycanın sovet Rusiyasına birləşdirilməsini, yalnız Qırmızı ordunun Azərbaycana əsl azadlıq gətirə biləcəyini, iqtisadi və sosial islahatların yalnız sosializm quruluşu şəraitində mümkün olacağını təbliğ edirdilər. Bu blok Şimali Azərbaycanı yenidən işğal etməyi qarşısına məqsəd qoymuş bolşeviklərin əlaltısı rolunu oynayırdı.

Ermənilər parlamentdə iki fraksiya ilə təmsil olunsalar da, əslində, vahid mövqedən çıxış edirdilər. Onlar ermənilərin Azərbaycana qarşı ərazi iddialarına haqq qazandırmaq üçün bütün imkanlardan istifadə etməyə çalışırdılar.Sovet işğalı reallaşan dövrdə erməni fraksiyaları bolşeviklərin tərəfinə keçdilər.

Azərbaycan Parlamentinin 17 aylıq fəaliyyəti dövründə 145 iclası keçirilmişdir. Yetərsay olmadığı üçün bu iclasların 15-i baş tutmamışdır. 130 iclasdan ikisi tarixi, yəni Azərbaycanın müstəqilliyinin elan olunması və Bakının azad olunmasının birinci ildönümləri münasibəti ilə 28 may 1919-cu il və 15 sentyabr 1919-cu il tarixli iclasları, dördü təntənəli, yəni, 1917-ci il fevral burjua inqilabının 2-ci və 3-cü ildönümləri münasibətilə 1919 və 1920-ci il martın 12-də, Azərbaycanın Gürcüstanla hərbi əməkdaşlıq müqaviləsinə həsr olunmuş 27 iyun 1919-cu il və Paris Sülh Konfransı tərəfindən Azərbaycanın müstəqilliyinin de-fakto tanınması ilə əlaqədar 14 yanvar 1920-ci il iclasları, ikisi isə fövqəladə iclaslar, yəni Ermənistanın Gürcüstana müharibə elan etməsi ilə bağlı 20 dekabr 1918-ci il tarixli və Azərbaycanla Gürcüstan arasında iqtisadi əməkdaşlıq haqqında müqavilələrin təsdiqinə həsr edilmiş 17 mart 1920-ci il tarixli iclasları olmuşdur.

Parlamentin fəaliyyəti dövründə müzakirəyə 270-dən çox qanun layihəsi çıxarılmış və təxminən 230-u qəbul olunmuşdur. Müzakirəyə çıxarılan qanun layihələri, bir qayda olaraq, yalnız üçüncü oxunuşdan sonra qəbul edilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qəbul etdiyi bütün qanun və qərarlar müstəqil dövlətin ilk qanun və qərarları olduğu üçün böyük əhəmiyyətə malik idi. Bununla belə, onların arasında müstəsna əhəmiyyət kəsb edən bir sıra qanunlar da vardır. Vətəndaşlıq, ümumi hərbi mükəlləfiyyət, mətbuat, Milli Bankın təsisi, Bakı Dövlət Universitetinin yaradılması, gömrük və poçt-teleqraf xidmətinin təkmilləşdirilməsi, məhkəmə qanunvericiliyi haqqında qanunlar bu qəbildən idi.

Ölkədə elm və təhsilin inkişafı, milli kadrların hazırlanması sahəsində parlament mühüm işlər görmüşdür. Bakı Dövlət Universitetinin təsisi, 100 nəfər azərbaycanlı gəncin xarici ali məktəblərdə dövlət hesabına təhsil alması üçün hazırlanmış qanun layihəsi parlamentdə geniş müzakirə edilərək qəbul olundu.

1919-cu ilin iyulunda parlament seçkilərdə qadınların və kişilərin bərabər hüquqa malik olmaları haqqında qanun qəbul etdi. Bu gün Azərbaycana demokratiya dərsi keçmək istəyən Avropa dövlətlərinin əksəriyyəti bu qanunu İkinci dünya müharibəsindən sonra qəbul etmişdir.

Parlamentin qarşısında duran ən mühüm vəzifələrdən biri də Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə tanınmasına nail olmaqdan ibarət idi. Buna görə də 1918-ci il dekabrın sonlarında parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Fransaya – Paris Sülh Konfransına nüfuzlu nümayəndə heyəti göndərildi. Erməni nümayəndə heyəti və onları müdafiə edən Fransa tərəfi Azərbaycan nümayəndə heyətinin konfransa buraxılmaması üçün əlindən gələni etdilər.Bütün çətinliklərə baxmayaraq, Azərbaycan nümayəndə heyəti 1919-cu ilin yanvarında başlanan konfransın işinə mayın sonlarında qoşula bildi. Mayın 28-də ABŞ Prezidenti Vudro Vilson Əlimərdan bəy Topçubaşov başda olmaqla Azərbaycan nümayəndə heyətini qəbul etdi.Ermənipərəst V.Vilson Azərbaycan nümayəndə heyətinə ümudverici heç nə vəd etmədi.Məsləhəti bundan ibarət oldu ki, böyük dövlətlərdən birinin himayəsini qəbul edin və yaşayın. Azərbaycan nümayəndə heyəti ruhdan düşmədi və xalqın istiqlalı uğrunda mübarizəni axıra qədər davam etdirməyə müvəffəq oldu.Son nəticədə Paris Sülh Konfransının Ali Şurası Azərbaycan Xalq Cümhuriyyətini de-fakto tanıdı. Azərbaycan beynəlxaq münasibətlər sisteminin subyektinə çevrildi.

Cümhuriyyətin ilk illərində Azərbaycan dövlətinin müstəqilliyini şübhə altına alan İran dövləti 1920-ci il martın 20-də Azərbaycanı de-yure tanıyan ilk dövlətlərdən biri oldu.Azərbaycan Parlamenti İran dövləti ilə bağlanan bu müqaviləni aprelin 15-də təsdiq etdi.

Azərbaycan Xalq Cümhuriyyəti Türkiyə, İran, Ukrayna, Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, Belçika, Hollandiya, Yunanıstan, Polşa, İsveçrə, İsveç, Danimarka, Latviya, Litva, Estoniya, Finlandiya,

Rumıniya, Almaniya, Gürcüstan, Ermənistan, Dağlılar Respublikası, Krım və başqa dövlətlərlə səfirliklər və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratdı, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər imzaladı.

1920-ci ilin aprel işğalı nəticəsində fəaliyyəti yarımçıq qalsa da, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti xalqımızın dövlətçilik və ictimai-siyasi fikir tarixində misilsiz rol oynamışdır.

Yetmiş illik sovet dönəmi arxada qaldı. 1991-ci ilin oktyabrında Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Azərbaycan Parlamenti öz müstəqilliyini bərpa edən Azərbaycan dövlətini Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etdi. Azərbaycan Parlamenti yenidən Azərbaycan xalqının milli maraqlarına xidmət etməyə başladı. Lakin müstəqilliyin bərpasının ilk illərində Azərbaycan çox ağır, böhranlı illərini yaşadı. Qanlı müharibə, ölkə daxilində çəkişmələr, vəzifə davası, xaos, xalqın bir-birini əvəz edən hakimiyyətlərə inamsızlığı – bütün bunlar ulu öndər Heydər Əliyevsiz Azərbaycanın yaşadığı məşəqqətlər idi. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olundu, bir milyon insan öz dədə-baba torpaqlarından qovularaq ağır qaçqın və məcburi köçkün həyatını yaşamağa məcbur edildi. Xalqın nicat dolu diqqəti yenidən ulu öndər

Heydər Əliyevə yönəldi. Belə çətin və dar məqamda ümummilli lider həyatından çox sevdiyi dövlətini və xalqını belə vəziyyətdə qoya bilməzdi. Doğma xalqının harayına yetdi. Əvvəlcə parlamentin sədri, sonra isə ölkə Prezidenti seçildi. Azərbaycanın haqq işini dünyaya çatdırmaq üçün xalqımız səfərbər olundu. Azərbaycan Parlamenti dünyanın ən nüfüzlu təşkilatlarında Ermənistanın təcavüzünü pisləyən qətnamələrin qəbul olunmasına nail oldu. Ümummilli lider Heydər Əliyev və Azərbaycanın dövlət başçısı İlham Əliyevin ardıcıl və qətiyyətli siyasəti nəticəsində Ermənistanın işğalçılıq siyasəti ifşa olundu. Amma, təəssüflər olsun ki, böyük dövlətlər Ermənistanı təzavüzdən çəkindirmək əvəzinə, Azərbaycanı dilə tutmağa səy göstərdilər. Azərbaycan xalqını düşmənə qarşı mübarizədə dəmir yumruq kimi birləşdirən Ali Baş Komandan İlham Əliyev 44 günlük İkinci Qarabağ müharibəsində düşməni danışıqsız təslim olmağa məcbur etdi. Düşmənin təslim sənədini imzamaqdan başqa çarəsi qalmadı. Azərbaycan torpaqları işğaldan azad edildi, şəhidlərin intiqamı alındı.

Azərbaycan Parlamenti bu gün də öz işini uğurla davam etdirir. Qalib dövlətin qanunverici orqanı həyati əhəmiyyətli qanunların vaxtında qəbul edilməsinə səy göstərir, ölkəmizin beynəlxalq aləmdə sülhsevər bir dövlət kimi tanınması üçün parlament diplomatiyasından uğurla istifadə edir, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinə öz təcrübəsi ilə böyük nüfuz qazandırır.

Azərbaycan Parlamenti bayrağımızın ruhuna uyğun Türk dövlətləri, İslam Əməkdaşlıq Təşkilatı və Avropa Parlament Şurası ilə əməkdaşlığını günü-gündən möhkəmləndirir.